**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**
**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ**

# MÜASİR DÖVRDƏ EFFEKTİV İDARƏETMƏNİN PROBLEMLƏRİ

*mövzusunda*

## VI RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ

## MATERİALLARI

*Bakı şəhəri, 19 Noyabr 2021-ci il*

**Emil AĞAYEV**
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci***
***"İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasının müəllimi***
*Emilaghayev93@mail.ru*

# MUZEYLƏRDƏ PEŞƏ ETİKASININ İNKİŞAFINDA İDARƏETMƏNİN ROLU

# THE ROLE OF MANAGEMENT IN THE DEVELOPMENT OF PROFESSIONAL ETHICS IN MUSEUMS

# РОЛЬ МЕНЕДЖМЕНТА В РАЗВИТИИ ПРОФЕССИОНАЛЬНОЙ ЭТИКИ В МУЗЕЯХ

***Xülasə:*** *Etika elminin özündə birləşdirdiyi peşə sahələrinin xüsusiyyətləri və nəzəri əsasları müasir tədqiqatlar üçün aktualdır. Digər sahələrdə olduğu kimi muzeylərdə də peşə etikasının inkişafı özünəməxsusluğu ilə seçilir. Muzeylərdə peşə etikasının inkişafında idarəetmənin mühüm rolu vardır. İdarəedici şəxsin bacarıq və funksiyaları bu məqalədə təhlil edilmişdir.*
***Açar sözlər:*** *Muzey, idarəetmə, etika, peşə, incəsənət*

***Abstract:*** *The characteristics and theoretical foundations of the disciplines that ethics combines are relevant to modern research. As in other areas, the development of professional ethics in museums is unique. Management plays an important role in the development of professional ethics in museums. The skills and functions of the manager are analyzed in this article.*
***Keywords:*** *Museum, management, ethics, profession, art*

***Резюме:*** *Особенности и теоретические основы дисциплин, которые объединяет этика, актуальны для современных исследований. Как и в других областях, развитие профессиональной этики в музеях уникально. Менеджмент играет важную роль в развитии профессиональной этики в музеях. В статье анализируются навыки и функции менеджера.*
***Ключевые слова:*** *музей, менеджмент, этика, профессия, искусство.*

Etika bir elm kimi müxtəlif sahələrlə bağlı olduğu kimi, həm də özündə hər bir peşənin əxlaq və davranış qaydalarını birləşdirir. Peşə etikasının bir-biri ilə sıx bağlı olan funksiyaları vardır. Bü-

tün sahələrdə öz vacib xüsusiyyətləri ilə seçilən idarəetmə qabiliyyətini isə xüsusilə vurğulamalıyıq. İdarəetmə bir termin kimi geniş mənalara malikdir.

Ümumilikdə idarəetmə özü bir mədəniyyətdir. Hər bir insanda bu xüsusiyyətlər olmur, çünki idarəetmədə olan şəxsdən intelekt, inkişaf, istedad kimi bacarıqlar tələb olunur. Müasir dövrümüzdə incəsənət əsərlərinin tanıdılması üçün, turizmin inkişafında oynadığı rolu ilə seçilən muzeylərdə də idarəetmənin peşə etikası üçün əhəmiyyətini vurğulamalıyıq. Muzeylərin idarəetməsinə rəhbərlik edən şəxsin əsas funksiyalarını təhlil edərək, çətin və şərəfli peşənin özünəməxsusluğunu qeyd etməliyik. Muzeylərdə peşə etikasının inkişafında idarəetmənin əsas funksiyaları aşağıdakılardır:

Muzeylərin funksiyasına uyğun olaraq rəhbər şəxsin seçilməsi-hər bir muzey öz tarixi olmaqla bərabər, müəyən bir sahəni araşdırır. İdarəetmədə olan şəxsin peşəsini dəqiq bilməsi, həmin rəhbərlik etdiyi muzeyin inkişafına gətirib çıxaracaqdır.

İdarəetmədə "İdarəedici" bacarıq-bu fikir bütün sahələrdə daha geniş, bir-birinə zidd fikirlərlə açıqlanır. İncəsənət yönümlü muzeylərdə çalışan işçilərin sənətə qarşı olan hissiyyatları idarəedici şəxsin diqqət marağında olmalıdır. İdarəedici qüvvə bütünlüklə muzeyin inkişafı və daxilindəki düzgün kadr islahatlarını aparmağı bacarmalıdır.

İdarəedici şəxsin muzey mühitinə baxışı-muzey mühiti bütövlükdə bir ölkənin inkişaf tarixinə səyahət etdirən səhnədir. Mühitin müasirliyi, yeni texnologiyalar və işıqlandırmanın məkanda düzgün formada istifadəsi idarəedici şəxsin başlıca vəzifələrindən biri olmalıdır. Düzgün mühit, qarşılıqlı bağlılıq və cəlbetmə muzeylərin öz tamaşaçılarını daima maraqlandırır.

Muzeylərdə idarəedici şəxsin yaradıcılıq fəaliyyəti-idarəedici şəxs özü yaradıcılıq fəaliyyəti ilə muzeydə daima seçilməlidir. Onun sənət əsərlərinə olan yaradıcılıq qabiliyyəti idrak və düşüncənin vəhdəti kimi qavranılmalıdır. Tanrıdan verilən bu istedad peşə etikasında "hiss etmə" kimi də təqdim edilir.

Muzeylərdə idarəedici şəxsin elmi fəaliyyəti-bu funksiyanın xüsusilə vurğulanması bizim ölkəmizdəki muzeylər üçün əhəmiyyətlidir. İdarəedici şəxs çoxşaxəli bir rəhbər kimi muzeyin elmi işçiləri ilə birlikdə fəaliyyətinə geniş yer ayırmalıdır. Kitablar, monoqrafiyalar və elmi əsərlər daima muzey rəhbərinin əsas vəzifəsi olmalıdır.

Muzeylərdə idarəedici şəxsin dil bacarıqları-müasir dövrümüzün ən çətin, tələbatlı olan fikirlərdən biri hər bir şəxsin dil bacarıqlarının inkişafına yönəldilməsidir. Muzeyləri xarici qonaqların ziyarət etməsi bu fikri təsdiqləyərək, idarəetmədə çalışan muzey işçisinin qarşısına vacib bir tələb kimi qeyd edilməlidir.

Muzeylərdə psixoloji vəziyyətin idarəedici şəxs tərəfindən tənzimlənməsi-idarəedici şəxs özü psixoloji istedadı ilə seçilməlidir. Yaradıcılıq və psixoloji vəziyyət onun bir növ məqsədi kimi öz muzey işçilərinin arasında qarşılıqlı ideya kimi təqdim edilməlidir.

İdarəedici şəxsin eksponat və muzey materialları haqqında təhlil-məlumat bacarıqları-muzeyi idarə edən şəxs peşəsinin vurğunu olmalıdır. Eksponat və muzey materialları haqqında muzey rəhbərinin dəqiqliklə bilməsi peşəsinə yanaşmasına münasibətini təsdiq edir. Ekspozisiyanın düzgün işlənməsi, təhlili, idarəedici şəxsin başlıca vəzifəsi kimi diqqətində olmalıdır.

Sərgilərin təşkilində idarəedici şəxsin bacarığı – bu fəaliyyət daha çox muzey rəhbərindən kuratorluq istedadı da tələb edir. Sərgini təşkil edən zaman əsərlərin düzgün yerləşməsi idarəedici şəxsin fikirlərinə də əsaslanmalıdır.

Xarici muzeylərlə əlaqənin inkişafında idarəedici şəxsin rolu-müasir dövrümüzdə muzeylərin daha çox tanıdılması üçün xarici ölkələrlə əlaqələr çox vacibdir. Muzeylərin qarşılıqlı sənət mübadiləsi həm də ölkənin tanıdılmasıdır. Ölkəmizdə milli xalça muzeyinin uğurlarını xüsusilə qeyd etməliyik.

"Muzeylərdə peşə etikasının inkişafında idarəetmənin rolu" müasir sənətşünaslığımız üçün aktualdır. İdarəedici şəxsin hərtərəfli inkişafı muzeyin tanıdılmasında mühüm rol oynayacaq.Muzeylərdə idarəetmənin inkişafı tariximizin qorunaraq, gələcək nəsillərə çatdırılmasında peşə sahibləri çiyinlərində böyük məsuliyyət daşıyır.

**Muzeylərdə peşə etikasının inkişafında idarəedici şəxsin əsas funksiyaları**
Muzeylərin funksiyasına uyğun olaraq rəhbər şəxsin seçilməsi
İdarəetmədə “İdarəedici” bacarıq
İdarəedici şəxsin muzey mühitinə baxışı
Muzeylərdə idarəedici şəxsin yaradıcılıq fəaliyyəti
Muzeylərdə idarəedici şəxsin elmi fəaliyyəti
Muzeylərdə idarəedici şəxsin dil bacarıqları
Muzeylərdə psixoloji vəziyyətin idarəedici şəxs tərəfindən tənzimlənməsi
İdarəedici şəxsin eksponat və muzey materialları haqqında təhlil-məlumat bacarıqları
Sərgilərin təşkilində idarəedici şəxsin bacarığı
Xarici muzeylərlə əlaqənin inkişafında idarəedici şəxsin rolu

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Ağayev E. “Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu:problem və perspektivlər”// “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda V Respublika elmi-praktik konfransının materialları,Turizm və menecment universiteti,s 103-104,Bakı 22 noyabr 2019.
2. Əmirxanov S.”Muzey pedaqogikası”. Bakı 2014, 117 s
3. Əmirxanov S. “Nəzəri muzeyşünaslıq”. Bakı 2009, 211 s